**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# TÜRKİYƏ RESPUBLİKASININ İCTİMAİ FİKİR TARİXİNDƏ CƏNUBİ AZƏRBAYCAN MƏSƏLƏSİ (1923-2018-ci illər)

İxtisas: **5502.01 – Ümumi tarix**

Elm sahəsi: **Tarix**


İddiaçı: **Asim Cənnət oğlu Cənnətov**


Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**


**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Cənubi Azərbaycan" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix üzrə fəlsəfə doktoru, dosent
**Səməd Zülfəli oğlu Bayramzadə**

Rəsmi opponentlər: tarix elmləri doktoru, dosent
**Vasif Vaqif oğlu Qafarov**

tarix üzrə fəlsəfə doktoru
**Elgün Söhbət oğlu Qəhrəmanov**

tarix üzrə fəlsəfə doktoru
**Əzim İsgəndər oğlu Heydərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

________________

Dissertasiya şurasının elmi katibi: tarix elmləri doktoru, dosent
**İlqar Vahid oğlu Niftəliyev**

________________

Elmi Seminarın sədri: AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor
**Musa Cəfər oğlu Qasımlı**

________________

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** 10 fevral 1828-ci il tarixində Cənubi Azərbaycan ərazisində Rusiya və İran arasında Türkmənçay sülh müqaviləsinin imzalanması ilə tarixi Azərbaycan torpaqları iki hissəyə bölünmüşdür. Bu bölünmə eyni zamanda Azərbaycanda gələcək faciələrin də təməlini qoymuşdur. Çoxəsrlik dövlətçilik ənənələrinə sahib olan Azərbaycan xalqının ikiyə bölünməsi həm Şimali, həm də Cənubi Azərbaycanda milli problemlərin yaranmasına gətirib çıxarmışdır. Azərbaycanın şimalında rus işğalının uzun illər davam etməsinə baxmayaraq, Azərbaycan xalqı öz milli kimliyini və ana dilini daha yaxşı qoruyub saxlamağı bacarmışdır. Azərbaycanın cənubunda isə hələ o zamanlar siyasi durum bir qədər fərqli idi. Bəhs etdiyimiz dönəmdə İranda türk Qacar sülaləsi hakimiyyətdə idi. Buna görə də həmin dönəmdə hər hansı bir milli məsələdən bəhs etmək yanlış olar.

1925-ci ildə İranda türk Qacar sülaləsinin son varisi olan Əhməd şah devrildi və ingilislərin dəstəklədiyi Rza xan Pəhləvi hakimiyyətə gəldi. Rza xanın hakimiyyətə gəlməsi ilə İranda Pəhləvi sülaləsinin hakimiyyəti başlandı. Pəhləvilərin hakimiyyəti illərində bütün İran türklərinə, xüsusilə də Cənubi Azərbaycan əhalisinə qarşı milli zülm siyasəti yeridildi. Cənubi Azərbaycanda yaşayan soydaşlarımız ana dilində təhsil hüququndan məhrum edildi, tarixi keçmişinin saxtalaşdırılmasına cəhdlər göstərildi və cəmiyyətin demək olar ki, bütün sahələrində ayrı-seçkiliyə məruz qaldı. Buna baxmayaraq, Pəhləvi sülaləsinin yeritdiyi yanlış siyasət iflasa uğradı və 1979-cu ildə İslam inqilabı ilə nəticələndi. Cənubi Azərbaycan əhalisi İslam inqilabında həlledici rol oynasa da, onların konstitusion hüquqları təmin olunmadı. Lakin Cənubi Azərbaycan əhalisi milli zülmə qarşı heç bir zaman səssiz qalmadı və hüquqlarının müdafiəsi uğrunda mübarizə apardı. Günümüzdə Cənubi Azərbaycana özünüidarəetmə hüququnun verilməsi, məktəblərdə ana dilinin tədris olunması və məhkəmələrin ana dilində keçirilməsi Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın başlıca tələbləridir. Bütün bunlar ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsini meydana gətirən əsas müddəalar hesab edilir.

Cənubi Azərbaycan məsələsi həm Azərbaycan tarixşünaslığında, həm də ictimai fikir tarixində milli məsələlərin öyrənilməsi baxımından mühüm yer tutur və bu gün də aktuallığını qoruyub saxlayır. Azərbaycan tarixində Cənubi Azərbaycan məsələsi ciddi şəkildə araşdırılmış və məsələnin öyrənilməsinə Ş.Tağıyeva, Ə.Rəhimli (Bije), S.Bayramzadə, M.Qasımlı, N.Nəsibzadə, C.Həsənli, V.Mustafayev, E.Mədətli, Ə.Tahirzadə, H.Əlibəyli, H.Səfəri və başqa bu kimi tədqiqatçılar böyük töhfələr vermişlər. AMEA-nın Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsi tərəfindən kollektivlə hazırlanmış "Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917)", "Cənubi Azərbaycan tarixi məsələləri" və "Güney Azərbaycan" kitabları, həmçinin S.Bayramzadənin "Bir daha "Türkmənçay Müqaviləsi" haqqında", "Maykl Aksvörtinin "Nadir şah" kitabı azərbaycançılıq baxımından", M.Qasımlının "Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi", N.Nəsibzadənin "İranda Azərbaycan məsələsi (XX əsrin 60-70-ci illəri)", "Bölünmüş Azərbaycan, bütöv Azərbaycan (məqalələr toplusu)", "Güneyli-Quzeyli məsələlərimiz", C.Həsənlinin "Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945)", "Soyuq müharibənin başlandığı yer: Güney Azərbaycan (1945-1946)", "Güney Azərbaycanda Sovet-Amerika-İngiltərə qarşıdurması (1941-1946)", "İkinci Dünya Müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945)", V.Mustafayevin "Cənubi Azərbaycanda Milli Şüur", E.Mədətlinin "İranda Azərbaycan tarixi məsələləri", Ə.Tahirzadənin "Kəsrəviçilik: kökü, özəyi, ardıcılları, dirildilməsi", H.Əlibəylinin "Birinci Dünya müharibəsi illərində Urmiyada türk-müsəlman əhalinin soyqırımı", H.Səfərinin "Cənubi Azərbaycan: 1918-ci il Soyqırımı" və s. əsərlər Cənubi Azərbaycan məsələsinin öyrənilməsində olduqca mühüm əhəmiyyət kəsb edir. Təqdim olunan dissertasiya işində sadalanan tədqiqat əsərlərindən istifadə edilmişdir.

Bəs Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsi hansı istiqamətdə tədqiqata cəlb olunmuşdur? Bu, Azərbaycan ictimaiyyəti üçün də maraq doğuran mühüm məsələlərdən birini təşkil edir. İctimai fikir tarixində araşdırmaya cəlb olunan məsələlər elmi, publisistik, siyasi, sosial və s. istiqamətlərdə təhlil oluna bilər.

Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsi daha çox elmi və publisistik istiqamətlərdə araşdırmaya cəlb olunmuşdur. Lakin regionda baş verən son hadisələr Cənubi Azərbaycan məsələsinin elmi müstəvidən siyasi müstəviyə keçdiyini göstərir. Belə ki, Azərbaycanın II Qarabağ müharibəsində parlaq qalibiyyəti, 10 dekabr 2020-ci ildə Bakıda keçirilmiş Zəfər paradında Türkiyə prezidenti cənab R.T.Ərdoğanın səsləndirdiyi məşhur şeir, həmçinin Zəngəzur koridoru məsələsinin gündəmə gəlməsi və Azərbaycan Respublikası prezidenti cənab İ.Əliyevin 11 noyabr 2022-ci il tarixində Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilmiş IX Zirvə görüşündə təşkilata üzv ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqları, təhlükəsizliyi və milli kimliyinin qorunmasına dair fikir səsləndirməsi[1] İran dövlətini ciddi şəkildə narahat edir. İranın bu məsələ ilə bağlı bəyanatları, "çoxillik və dərin tarixi əlaqələrə" əsaslanaraq 2022-ci ilin oktyabr ayında tələsik şəkildə Ermənistanın Qafan şəhərində Baş konsulluq açması, paralel olaraq Ermənistanın Təbriz şəhərində Baş konsulluq açması ilə bağlı razılığın əldə edilməsi[2], İranın Azərbaycanla münasibətlərində yumşaq güc nümayişinin birbaşa və dolayısı ilə Cənubi Azərbaycanla bağlı olması və s. məsələlər bərabərində Cənubi Azərbaycan məsələsini yenidən gündəmə gətirir. Bütün bu məsələlər zəncirində Türkiyə prezidentinin Cənubi Azərbaycanla bağlı mövqeyi Türkiyə ictimai fikrində Cənubi Azərbaycan məsələsinin fərqli statusa keçdiyinin göstəricisi hesab edilə bilər. Buna baxmayaraq, təqdim olunan dissertasiya işində elmi istiqamət əsas götürülmüşdür.

Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin gündəmə gəlməsi XX əsrin əvvəllərinə təsadüf edir. Lakin bu məsələ Türkiyə ictimai fikrində uzun illər İran türkləri çərçivəsində tədqiq edilmiş və məsələyə bir qədər səthi yanaşılmışdır. Türkiyənin "Yeni Şafak" qəzetinin 23 dekabr 2015-ci il tarixli sayında baş redaktor

---

[1] Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə İlham Əliyevin nitqi. 11 noyabr 2022. https://president.az/az/articles/view/57856

[2] İran Təbrizdə Ermənistan konsulluğunun açılmasına razılıq verdi. Gündəlik Bakı, 21 oktyabr 2022. https://gundelik-baku.com/dunya/65972-ran-tebrizde-ermenistan-konsullugunun-achilmasina-raziliq-verdi.html

İbrahim Karagülün “21-ci yüzyılın Şah İsmaili ve Türkiye-İran savaşı” sərlövhəli yazısında Səfəvi şahı I İsmayılın Fars şahı kimi təqdim olunması bunun ən bariz örnəklərindən biridir. Təbii ki, bu məsələ Azərbaycan ictimaiyyətində ciddi narazılıqla qarşılanmış və tədqiqatçılarımızdan Səməd Bayramzadə “Respublika” qəzetinin 10 mart 2017-ci il tarixli sayında “Türkiyənin “Yeni Şafak” qəzetinin baş redaktoru İbrahim Karagülə cavab” başlıqlı yazısında tutarlı cavab vermişdir.[3]

Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin öyrənilməsinə azərbaycanlı mühacirlər və çoxsaylı türkiyəli tədqiqatçılar böyük töhfələr vermişlər. Dissertasiya işinin hazırlanmasında həmin tədqiqatçılardan M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, Ə.Ağaoğlu, Y.Akçura, Z.Göyalp, N.Atsız, M.S.Aran, M.N.Təbrizli, Ə.Cəfəroğlu, H.Baykara, M.M.Ören, M.Saray, A.Attar, Ə.Badəmci, Ə.Kafkasyalı, R.Albayrak, M.Erendorun əsərləri mühüm tədqiqat qaynağı kimi araşdırmaya cəlb edilmişdir.[4] Adları sadalanan tədqiqatçıların həyata keçirdiyi elmi araşdırmalarda İran türkləri, Cənubi Azərbaycan, onun coğrafi yerləşməsi, əhalisinin etnik tərkibi və başqa bu kimi mühüm məsələlər ök əksini tapmışdır. Bütün bunlar Türkiyə ictimai fikir

---

[3] Bayramzadə, S., Rüstəmov, R. Türkiyənin “Yeni Şafak” qəzetinin baş redaktoru İbrahim Qaragülə cavab. “Respublika” qəzeti, No. 53 (5796), 10 mart 2017, s.5

[4] Resulzade, M.E. İran Türkleri. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1993; Mehmetzade, M.B. Ermeniler ve İran. İstanbul: Necm-i İstikbal Matbaası, 1927; Ağaoğlu, A. İran ve İnkılabı. Ankara: Zerbamat Basımevi, 1941; Akçura, Y. Türkçülük, türkçülüğün tarihi gelişimi. İstanbul: İlgi Kültür Sanat, 2015; Gökalp, Z. Türkçülüğün Esasları. İstanbul: Kamer Yayınları, 2019; Azer, S. İran türkləri. İstanbul: Cümhuriyyet Matbaası, 1942; Tebrizli, M.N. Bugünkü Azerbaycan Davası esas ve sebepleri. İstanbul: Gün Basımevi, 1946; Caferoğlu, A. Türk Kavimleri. Ankara: Türk Kültürünü Araştırma Enstitüsü yayınları, 1983; Baykara, H. İran İnkilabı ve Azatlık Hareketleri. İstanbul: Emek Matbaacılık Tesisleri, 1978; Ören, M.M. İran Türkleri Hürriyet Hareketleri. Girne: Mars Matbaası, 1980; Saray, M. Türk-İran İlişkileri. Ankara: Atatürk Araştırma Merkezi, 2019; Attar, A. İranın Etnik Yapısı. Ankara: Divan yayıncılık, 2006; Bademci, A. İranda Türklerin Bin Yılı. İstanbul: Yeditepe Yayınevi, 2018; Kafkasyalı, A. İran Coğrafyasında Türkler. İstanbul: Bilgeoğuz, 2011; Albayrak, R. Türklerin İranı. Ankara: Berikan Yayınları, 2013; Erendor, M. İranda Türk Kimliği. İstanbul: Kamer yayınları, 2018 və s.

tarixində Cənubi Azərbaycan məsələsinin öyrənilməsində qaynaq rolunu oynayır.

Sovet, Qərb və İran tarixşünaslığında dərc olunmuş bir sıra tədqiqatçıların elmi əsərləri də tədqiqat işinə cəlb edilmişdir. Həmin tədqiqatçılar arasında Z.D.Zavriyev, K.P.Matveyev, R.Furon, G.Lenczovski, D.N.Makenzi, V.Minorski, B.Şaffer, O.A.Vestad, S.E.Vimbuş, F.S.Fatemi, A.Mozaffari, F.Səfizadeh, R.Rəisniya, T.Məlikzadeh və s. kimi tədqiqatçıların adlarını çəkmək olar. Adları sadalanan müəlliflərin qələmindən çıxmış elmi əsərlər Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin öyrənilməsində müqayisəli təhlil aparmaq nöqteyi-nəzərindən yardımcı rol oynayır və təqdim olunan dissertasiya işində istifadə edilmişdir.

Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin öyrənilməsində yeni baxış bucağının yaranmasına səbəb olan bir neçə önəmli hadisə vardır ki, bunlardan biri və birincisi Türkiyədə cümhuriyyətin elan edilməsinə təsadüf edir. Məlumdur ki, ötən əsrin 20-ci illərində türk dünyasında gerçək milli müstəqillik özünü yalnız Türkiyədə göstərirdi. İranda türklər, xüsusilə də Azərbaycan türkləri böyük say çoxluğuna malik olsalar da, Pəhləvi rejiminin yeritdiyi milli zülm siyasəti onların haqq səsini boğurdu. Qafqaz, Krım, Volqaboyu, Türküstan və Sibir türkləri isə bolşeviklərin təsiri altında formal müstəqilliyə sahib olsalar da, əslində Moskva tərəfindən idarə olunurdu. Bu fakt onu göstərir ki, 1923-cü ildən sonra Türk dünyasında gerçək milli müstəqillik yalnız Türkiyədə mövcud idi. Ağır şərtlər altında təklənmiş Türkiyə isə həmin dönəmdə yalnız öz istiqlalını düşünürdü. İstiqlaliyyət müharibəsindən qalib çıxmış Türkiyə Atatürkün başlatdığı islahatlar nəticəsində öz istiqlaliyyətini qorumağı bacarmış və "yurdda sülh, cahanda sülh" şüarı ilə qonşu ölkələrlə, xüsusilə də İranla dostluq münasibətləri qurmuşdu. Osmanlı dövlətinin süqutundan sonra yenicə istiqlalına qovuşmuş Türkiyə milli hüquqları tapdalanan türk xalqlarına açıq şəkildə yardım göstərmək iqtidarında deyildi. Buna baxmayaraq, Atatürk hökuməti Türkiyə xaricində böyük bir türk nüfuzunun mövcud olduğunu çox gözəl dərk edirdi. Bu səbəbdən də Türkiyə xaricində yaşayan türkdilli xalqların və onların mədəniyyətinin öyrənilməsi

Türkiyə ictimai fikir tarixinin diqqət mərkəzində dayanan mühüm məsələlərdən birini təşkil edirdi.

Sovet Rusiyası XX əsrin 20-ci illərindən başlayaraq türk xalqlarını (Qafqaz, Azərbaycan, Krım və Türküstan) əsarət altına salaraq onları uzun müddət sərt kommunist rejimi nəzarəti altında saxlamağa müvəffəq oldu. Bu zaman Türkiyə, Rusiyanın işğaldan dərhal sonra qurduğu istibdad rejimindən qaçan türk toplumları aydınlarının sığındığı bir ölkəyə çevrilmişdir. Türk dünyasının müxtəlif yerlərindən İstanbula gələn ziyalı təbəqəsi türkçülük və Türk birliyi fikrinin Türkiyədə daha da güclənməsini təmin etmişdirlər.[5] 27 aprel 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən işğalından və İranda Qacar sülaləsinin devrilməsi ilə 1925-ci ildə Pəhləvi sülaləsinin hakimiyyətə gəlməsindən sonra milli düşüncə sahibi olan çoxlu sayda istiqlalçılarımız qardaş Türkiyəyə pənah aparmış və mühacirətdə şimallı-cənublu Azərbaycan məsələsini ictimai fikir tarixində gündəmə gətirməyə çalışmışlar. Türkiyə hökumətinin onlara şərait yaratması isə əslində Azərbaycan məsələsinə nə qədər ciddi yanaşdığını göstərirdi. Buna baxmayaraq, Türkiyə ictimai fikrində Cənubi Azərbaycan məsələsinə heç bir zaman birmənalı baxış olmamışdır. Yuxarıda da qeyd etdiyimiz kimi, Türkiyə qonşu İranla daima ehtiyatlı siyasət yürütmüş və dostluq münasibətləri saxlamışdır. Bu səbəbdən də Cənubi Azərbaycan məsələsi və yaxud Cənubi Azərbaycanda baş verən milli hərəkat Türkiyədə dövlət səviyyəsində dəstəklənmirdi.

XX əsrin əvvəllərində Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin formalaşmasında Azərbaycan Xalq Cümhuriyyəti qurucularının çox böyük rolu olmuşdur. Müstəqil Azərbaycan dövlətinin 27-28 aprel 1920-ci ildə Sovet Rusiyası tərəfindən işğal olunmasından sonra mühacirət həyatını yaşamış həmin dövlət qurucularımız qardaş Türkiyəyə sığınaraq mühacirətdə Rusiya işğalına qarşı ideoloji savaşlarını davam etdirməklə kifayətlənməmiş, eyni zamanda Azərbaycan məsələsini gündəmdə saxlamış və İranda da böyük bir türk varlığının olduğunu sübut etməyə çalışmışlar. M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə və

[5] Saray, M. Türk-İran İlişkileri. Ankara: Atatürk Araştırma Merkezi, 2019, s. 108-109

Ə.Ağaoğlu bu məsələdə ciddi işlər görmüşlər. Türkiyə ictimai fikir tarixində hələ Osmanlının mövcud olduğu bir çağda İran türkləri anlayışını ilk dəfə 1911-ci ildə M.Ə.Rəsulzadə "İran türkləri" əsəri ilə gündəmə gətirmiş və Cənubi Azərbaycan məsələsini İran türkləri çərçivəsində araşdırmışdır.[6] Sonralar bir çox azərbaycanlı mühacirlər və türkiyəli tədqiqatçıların önəmli bir qismi məhz M.Ə.Rəsulzadənin yazılarına söykənərək bu sahədə araşdırmalar aparmış və Cənubi Azərbaycan məsələsini Türkiyə ictimaiyyətinin diqqətinə çatdırmışlar.

Türkiyə ictimai fikrində Cənubi Azərbaycan məsələsinin öyrənilməsində yeni baxış bucağının yaranmasına təkan verən hadisələrdən biri də İkinci Dünya müharibəsinin başlanması ilə dünyada cərəyan edən siyasi hadisələr idi. Belə ki, ötən əsrin 40-cı illərində Azərbaycandan Türkiyəyə yeni mühacirət axını başlandı və azərbaycanlı mühacirlər Türkiyə ictimai fikrində şimallı-cənublu Azərbaycan məsələsini yenidən gündəmə gətirdilər. Azərbaycanlı mühacirlərdən Murtuza Nizaməddin Təbrizli, Məhəmməd Sadiq Aran, Əhməd Cəfəroğlu və Hüseyn Baykara bu istiqamətdə böyük əmək sərf etmişlər. Mühacirlərdən M.N.Təbrizlinin adını xüsusilə qeyd etmək lazımdır. M.N.Təbrizli 1946-ci ildə Türkiyədə işıq üzü görmüş "Bugünkü Azərbaycan davası: əsas və səbəbləri" adlı əsərində Cənubi Azərbaycan terminini ilk dəfə elmi ədəbiyyata daxil etmişdir.[7] Bildiyimiz kimi, İran ictimai fikrində II Rusiya-İran müharibəsini sona çatdıran Türkmənçay müqaviləsi İranın şimal torpaqlarının Rusiya tərəfindən işğalı kimi qiymətləndirilir. Lakin M.N.Təbrizli bu fikrə qarşı çıxaraq Türkmənçay müqaviləsini tarixi Azərbaycan torpaqlarının ikiyə bölünməsi kimi qiymətləndirmişdir. Onun irəli sürdüyü bu fikirlər Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin öyrənilməsində bir yenilik idi. Hətta sonralar azərbaycanlı mühacirlərdən Ə.Cəfəroğlu və H.Baykara da tədqiqatlarında Cənubi Azərbaycan ifadəsinə yer vermişlər. Adlarını sadaladığımız görkəmli şəxslər Azərbaycanı əsla unutmamış və elmi

---

[6] Resulzade, M.E. İran Türkleri. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı, 1993, s. 8

[7] Tebrizli, M.N. Bugünkü Azerbaycan Davası esas ve sebepleri. İstanbul: Gün Basımevi, 1946, s. 8-9

araşdırmalarında Azərbaycanla bağlı mühüm məsələləri daima Türkiyə ictimaiyyətinin diqqət mərkəzində saxlamağa çalışmışlar.

Ötən əsrin sonlarında dünyada cərəyan edən hadisələr Türkiyə ictimai fikir tarixində yeni baxış bucağının yaranmasına zəmin yaratdı. SSRİ-nin dağılması ilə əksər türk xalqlarının milli müstəqilliyini bərpa etməsi Türkiyənin Şərq siyasətində yeni bir səhifə açdı. Mərkəzi Asiyada dövlət müstəqilliyini bərpa etmiş türk dövlətlərinin, o cümlədən, Azərbaycan Respublikasının dövlət müstəqilliyini rəsmən tanıyan ilk dövlət məhz Türkiyə oldu. Bu da Türkiyə Respublikasının türk xalqlarının taleyinə nə qədər ciddi yanaşdığını göstərirdi.

Azərbaycanın 18 oktyabr 1991-ci ildə dövlət müstəqilliyini elan etməsinin ardından Dağlıq Qarabağ münaqişəsinin alovlanması ilə bölgədə yaranmış yeni geosiyasi vəziyyət və bunun Cənubi Azərbaycana yansıması Türkiyə ictimai fikrində də öz əksini tapdı. Belə ki, İranda baş verən hər hansı bir hadisə və İranda yaşayan türk xalqlarının, xüsusilə də azərbaycanlıların üzləşdiyi problemlər dərhal Türkiyə mediasında işıq üzü görməyə başladı. Türkiyə Respublikası prezidenti A.Gülün 2011-ci ilin fevralında İrana səfəri zamanı Təbrizdə azərbaycanlılar tərəfindən böyük coşqu ilə qarşılanması Türkiyədə gündəmin əsas müzakirə mövzularından birinə çevrildi.[8] Bütün bunlar Türkiyə ictimai fikrində Cənubi Azərbaycan məsələsi ilə bağlı təsəvvürlərin genişlənməsində mühüm rol oynadı. 27 sentyabr 2020-ci ildə başlanmış 44 günlük Vətən müharibəsinin Azərbaycan Respublikasının tarixi zəfəri ilə bitməsi və 10 dekabr 2020-ci il tarixində Bakıda keçirilmiş zəfər paradı ilə bu məsələ pik nöqtəyə çatdı. Zəfər paradında iştirak etmiş Türkiyə Respublikası prezidenti cənab R.T.Ərdoğanın bütöv Azərbaycan məsələsinə işarə edən tarixi çıxışı Türkiyə dövlət rəsmiləri tarixində bir ilk oldu. Bu hadisə eyni zamanda İranda hakim dairələr arasında ciddi narahatlıq doğurdu. Türkiyə Respublikasının siyasi və hərbi gücünün artması, Azərbaycan Respublikası ilə yaxınlaşma siyasəti yeritməsi və bunun Cənubi Azərbaycana yansıması Türkiyə ictimai fikrində Cənubi

---

[8] Cumhurbaşkanı Güle Tebrizde büyük ilgi. 16 Şubat 2011. https://www.hurriyet.com.tr/dunya/cumhurbaskani-gule-tebrizde-buyuk-ilgi-17037625

Azərbaycan məsələsinin öyrənilməsində yeni bir baxış bucağının yaranmasına təsirsiz ötüşmür.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyekti günümüzdə ictimai fikirdə aktuallıq kəsb edən "Cənubi Azərbaycan" məsələsidir. Tədqiqat işinin predmetini isə Türkiyə ictimai fikir tarixində dərc olunmuş elmi əsərlər, elmi jurnallar, KİV, tərcümə, şərh və yazıların əsasında Cənubi Azərbaycan məsələsinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin başlıca məqsədi "elmi əsərlərin və məqalələrin tədqiqi", başqa sözlə tarixşünaslıq araşdırması deyil, elmi əsərlərin və məqalələrin əsasında Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin araşdırılmasıdır. Türkiyə ictimai fikrində Cənubi Azərbaycan məsələsi ilə bağlı tədqiqatçıların heç bir zaman birmənalı fikri olmamış və İranda, xüsusilə də Cənubi Azərbaycanda baş verənlər fərqli şəkildə şərh edilmişdir. Bütün bunları nəzərə alaraq tədqiqat işinin qarşısına aşağıdakı vəzifələr qoyulur:

- Azərbaycanda dövlətçilik tarixinə ümumi baxış keçirilməsi və Cənubi Azərbaycan məsələsinin ümumi mahiyyətinin öyrənilməsi;
- Türkiyə ictimai fikrində Cənubi Azərbaycan məsələsini gündəmə gətirən tarixi səbəblərin araşdırılması;
- Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin formalaşmasında mühüm rol oynamış Azərbaycan mühacirləri və türkiyəli tədqiqatçıların elmi araşdırmaları əsasında Cənubi Azərbaycan məsələsinin tədqiqata cəlb olunması;
- Türkiyə tarixşünaslığında İranda kimlik siyasətinin, o cümlədən, türk kimliyi və iranlı kimliyinin, Cənubi Azərbaycanda ərazi və əhali məsələsinin tədqiq olunması.

**Tədqiqat metodları.** Tədqiqat işi Azərbaycan Respublikasında və Türkiyədə müxtəlif araşdırma mərkəzlərində (Təbriz Araşdırmaları İnstitutu, Sahibkıran Strateji Araşdırmalar Mərkəzi, Anka İnstitutu), həmçinin Başbakanlık Osmanlı Arxivi (DAB) və Genelkurmay Askeri Tarih ve Stratejik Etüt Dairə Başkanlığı Arxivində (ATAŞE), eləcə də elmi kitabxanalarda şəxsi araşdırmalar

əsasında aparılmışdır. Mövzunun aktuallığını və elmi əhəmiyyətini nəzərə alaraq araşdırma zamanı aşağıdakı ümumi elmi metodlardan istifadə edilmişdir:

- fakt və materialların toplanaraq sistemləşdirilməsi;
- sistemli təhlil və şərh;
- müqayisəli təhlil;
- problemə kompleks yanaşma, tarixilik prinsipi;
- ümumiləşdirmələr apararaq elmi nəticələrin əldə olunması.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- Cənubi Azərbaycan məsələsi Türkiyə ictimai fikir tarixində öz əksini tapmış mühüm məsələlərdən biridir. Bu məsələ hələ Osmanlı dövlətinin son illərində də diqqətlə izlənilirdi. Bunun da məlum tarixi səbəbləri vardır.
- Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin formalaşmasında ilk xidmətlər Azərbaycan mühacirləri və eləcə də digər türkiyəli tədqiqatçılara məxsusdur. Azərbaycan Xalq Cümhuriyyəti qurucuları başda olmaqla əksər azərbaycanlı mühacirlər və milliyyətçi təfəkkürə sahib olan türk ziyalıları Cənubi Azərbaycan məsələsinin öyrənilməsinə böyük töhfələr vermişlər.
- Pəhləvilər dövründə və İran İslam Respublikası elan edildikdən sonra İranda həyata keçirilmiş kimlik siyasəti, bu siyasətin Cənubi Azərbaycan əhalisinə təsiri, həmçinin Kəsrəviçilik, Azərbaycan xalqının tarixi irsinin və milli kimliyinin saxtalaşdırılmasına cəhdlər göstərilməsi, elmi əsası olmayan iddialar ortaya qoyulması Türkiyə ictimai fikir tarixində tədqiqata cəlb edilən mühüm məsələlər arasında yer alır.
- Cənubi Azərbaycan ərazisi və İranda yaşayan türk xalqlarının, o cümlədən, Cənubi Azərbaycan əhalisinin sayı ilə bağlı dərc olunmuş yazılar və Türkiyə ziyalılarının yanaşmaları mövzu baxımdan bizim üçün diqqəti cəlb edən ən ümdə məsələlərdən birini təşkil edir.
- Şimali Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi Cənubi azərbaycanlılar arasında milli özünüdərki gücləndirdiyi kimi, 27 sentyabr 2020-ci ildə müzəffər

Azərbaycan ordusunun Qarabağı işğaldan azad etmək üçün erməni işğalına qarşı başlatdığı 44 günlük Vətən müharibəsi də şimallı-cənublu azərbaycanlılar arasında milli-mədəni birliyi daha da gücləndirdi. Türkiyə Cümhuriyyəti prezidenti cənab R.T.Ərdoğanın 10 dekabr 2020-ci il tarixində Bakıda keçirilmiş zəfər paradında iştirakı və bütöv Azərbaycan məsələsinə işarə edən tarixi çıxışı da bu məsələdə bir daha özünü qabarıq şəkildə göstərdi. Türkiyə Respublikasının siyasi və hərbi gücünün kəskin artması, Türk Birliyinin qurulması istiqamətində Azərbaycan Respublikası ilə yaxınlaşma siyasəti yeritməsi və bu prosesin Cənubi Azərbaycana yansıması qonşu ölkələr tərəfindən də diqqətlə izlənilir. Lakin Orta Şərqdə cərəyan edən siyasi hadisələr digər ölkələrlə müqayisədə Cənubi Azərbaycan məsələsinin Türkiyə üçün önəmini daha da artırır.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan ictimai fikrində Cənubi Azərbaycan məsələsi ilə bağlı çoxlu sayda kitab və məqalələr işıq üzü görmüşdür. Lakin Türkiyə ictimai fikir tarixində tədqiqata cəlb edilən məsələ ilə bağlı tədqiqatçıların yekdil fikrini görmək mümkün deyil, hətta bəzi hallarda Cənubi Azərbaycan məsələsi ilə bağlı qərəzli fikirlərin də yer aldığını görmək olar. Tədqiqat zamanı gəlinmiş aşağıdakı nəticələr Azərbaycan tarixşünaslığı üçün yenilik hesab edilə bilər:

- Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsi hazırki konteksdə nə Azərbaycan, nə də Türkiyə tarixşünaslığında indiyədək araşdırılmamışdır. Cənubi Azərbaycan məsələsinin bu aspektdə araşdırılması elmi yenilikdir;
- Türkiyə ictimai fikrində Cənubi Azərbaycan məsələsini gündəmə gətirən tarixi səbəblər araşdırılmışdır;
- Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin meydana gəlməsində Azərbaycan mühacirləri və Türkiyə tədqiqatçılarının rolu tədqiq edilmişdir;
- Türkiyə tarixşünaslığında Cənubi Azərbaycan məsələsinə Türkiyə xaricində yaşayan türklər və onların tarixi problemlərinin öyrənilməsi çərçivəsində üstünlük verilmişdir;

- Türkiyənin rəsmi dövlət qurumları və siyasi partiyalarının fəaliyyət proqramlarında yaxın zamanlara qədər Cənubi Azərbaycan məsələsi ilə bağlı hər hansı məsələ öz əksini tapmamışdır;
- Azərbaycanın II Qarabağ müharibəsində qalibiyyətindən sonra – Zəfər paradında – Türkiyə ilk dəfə rəsmi səviyyədə Cənubi Azərbaycan məsələsini qabartdı. Bu da fikrimizcə, onu deməyə əsas verir ki, Türkiyə yaxın zamanlara qədər Cənubi Azərbaycan məsələsini İranla münasibətlər çərçivəsində dəyərləndirmişdir. Hazırda isə bu yanaşmada keyfiyyət dəyişikliyi baş vermiş, məsələnin Azərbaycanla münasibətlər çərçivəsində dəyərləndirilməsi məqsədəuyğun hesab edilir.

Bütün bu yeniliklər araşdırmamızda mövzu ilə bağlı müdafiəyə çıxardığımız müddəaları irəli sürməkdə haqlı olduğumuzu təsdiq edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Bu dissertasiyadan Azərbaycan tarixi fənninin tədrisi zamanı Cənubi Azərbaycandan bəhs edən bölümlərdə praktik vəsait kimi istifadə edilə bilər. Dissertasiya işi eyni zamanda Cənubi Azərbaycan tarixinə dair mühazirələrin, dərslik və dərs vəsaitlərinin hazırlanmasında da məqsədəuyğun hesab edilir.

**Tədqiqat işinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin məzmununu əhatə edən əsas müddəaları müəllifin Azərbaycanda və Türkiyədə elmi nəşrlərdə çap olunmuş 11 məqaləsində (o cümlədən, dördü xarici ölkələrdə), habelə beynəlxalq elmi konfranslarda etdiyi 5 məruzəsində (3 konfrans materialı və 2 tezis) öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyası akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Cənubi Azərbaycan" şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiyanın ümumi həcmi 217898 işarədən (əlavələr və istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla), o cümlədən "Giriş" hissəsi 21777, I fəsil

55788, II fəsil 81527, III fəsil 46106, "Nəticə" hissəsi 10384 işarədən ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi yeniliyi əsaslandırılmış, onun öyrənilmə dərəcəsindən və istifadə olunmuş mənbələrdən bəhs olunmuş, elmi araşdırmanın məqsəd və vəzifələri, nəzəri və metodoloji əsasları, nəzəri və praktik əhəmiyyəti müəyyən edilmiş və sonda işin ümumi strukturu göstərilmişdir.

Dissertasiyanın **"Cənubi Azərbaycan məsələsinin ümumi mahiyyəti"** adlanan **I fəsli** iki yarımfəsildən ibarətdir. Bu fəsildə adından da məlum olduğu kimi, ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsini meydana gətirən tarixi səbəblərə aydınlıq gətirilmişdir.

**"Azərbaycanın dövlətçilik tarixinə ümumi baxış"** adlanan birinci yarımfəsildə Azərbaycan adının tarixi etimologiyası haqqında səsləndirilən fərqli versiyalar, Azərbaycanın dövlətçilik tarixi ümumi şəkildə şərh edilmiş və Türkiyə ictimai fikrində məsələyə münasibət öz əksini tapmışdır.

Ərəb istilasından sonrakı dönəmdə Azərbaycanın dövlətçilik tarixi ilə bağlı mühüm məlumatların yazıya alındığı ərəbdilli (İbn Hovqəl, İstəxri, Təbəri) və farsdilli (H.Rumlu və Əbu Bəkr əl-Qütbi əl-Əhəri) qaynaqların Türkiyə tarixşünaslığında tədqiqata cəlb olunması, eləcə də Azərbaycanın görkəmli tarixçisi hesab olunan Z.Bünyadovun bu sahədə işıq üzü görmüş elmi əsərlərinin türk dilinə tərcümə olunması Türkiyə ictimai fikrində bu barədə təsəvvürlərin formalaşmasında mühüm rol oynamışdır.

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin Səfəvilər dövrünü Türkiyə tarixşünaslığında bir qədər az yaxud zəif işlənmiş dövr hesab etmək olar. Bunun da məlum səbəbləri vardır. XVI əsrin əvvəllərində ərazi iddiaları iki qonşu türk xanədanlığı – Səfəvilər və Osmanlı arasında uzunmüddətli müharibələrə səbəb oldu. Bu müharibələr Osmanlının Avropaya irəliləməsini bir qədər ləngitdi. Eyni zamanda Səfəvilər Osmanlı işğalına qarşı mübarizə aparmaq məqsədilə həm fars əyanlarını ittifaqa cəlb etdilər, həm də Avropanın dəstəyindən istifadə etdilər. Bütün bunlar Osmanlı cəmiyyətində Səfəvilərə qarşı

mənfi düşüncənin yaranmasına gətirib çıxardı. Bundan ilhamlanan bir sıra müasir türkiyəli tarixçilər hələ də Səfəvi irsini İran dövlətinin mirası kimi təqdim etməyə çalışırlar. Türkiyə ictimai fikrində Səfəvilər dövlətinin İran dövləti, eləcə də Şah I İsmayılın fars şahı kimi təqdim olunması təəssüf doğuran məqamlardan biri olmaqla bərabər bu sahənin az tədqiq olunduğunu söyləməyə əsas verir.

M.F.Axundzadənin Azərbaycanın mədəni həyatında oynadığı aparıcı rol və Türk dünyasına, eləcə də Cənubi Azərbaycana ideoloji təsiri, həmçinin Azərbaycan Xalq Cümhuriyyəti dövrü, Azərbaycan türklərinin tarixi keçmişinin saxtalaşdırılması və Pişəvəri hərəkatı Türkiyə ictimai fikrində işıq üzü görmüş mühüm məsələlər arasında yer alır. Türkiyəli tədqiqatçılardan Sonay Ünalın Pişəvəri hərəkatına həsr olunmuş "Yaxın dönəm İran tarixi: Azərbaycan Milli Hökuməti, 1945-1946" adlı tədqiqat əsəri xüsusilə diqqətəlayiqdir.

İkinci yarımfəsil **"Cənubi Azərbaycan məsələsini meydana gətirən tarixi səbəblər"** adlanır. Bu yarımfəsildə ictimai fikirdə Cənubi Azərbaycan məsələsinin ümumi mahiyyəti, eləcə də İranda türklərin çoxəsrlik hakimiyyəti və azərbaycanlıların oynadığı aparıcı rol xüsusilə vurğulanmış, eyni zamanda Pəhləvilərin hakimiyyətə gəlməsindən sonra Cənubi Azərbaycan əhalisinin milli hüquqları uğrunda apardığı mübarizə geniş şəkildə şərh olunmuşdur.

Səfəvilərin hakimiyyəti dönəmində bir bayraq altında birləşmiş Azərbaycan və İran xalqlarının mənəvi birliyi Pəhləvilərin hakimiyyətə gəlişi ilə pozuldu. Belə bir zamanda rus kazak alayının sıradan bir nəfəri olan Rza xan Pəhləvi yaranmış durumdan öz xeyrinə istifadə edə bildi. İmperialist qüvvələr tərəfindən dəstəklənən Rza xan 1925-ci ildə İran şahı elan edildi.[9] Bununla da İranda X əsrin sonlarında Qəznəvilərlə başlamış minillik türk hakimiyyəti rəsmi olaraq başa çatdı. Rza xan öz hakimiyyətini uzunömürlü etmək istəyirdi və bu yolda özünə böyük əngəl olaraq türkləri görürdü. Bu səbəbdən də 1930-cu illərdə Pan-İranizm siyasətini həyata keçirməyə başladı. Bundan da ən böyük zərəri Cənubi Azərbaycan əhalisi başda olmaqla bütün İran türkləri gördü. Halbuki, İranda türk hakimiyyəti dönəmində Azərbaycan müştərək İranın mənafeyi uğrunda özünü

---

[9] Baykara, H. İran İnkilabı ve Azatlık Hareketleri. İstanbul: Emek Matbaacılık Tesisleri, 1978, s. 205

fəda etmişdir. Bunun əvəzində Pəhləvilər Cənubi Azərbaycan türklərinə maddi və mənəvi ziyan vurmaqdan başqa bir iş görməmişlər.

Pəhləvi sülaləsi türklərə qarşı həyata keçirdiyi bu ayrı-seçkilik siyasəti ilə türklər və farslar arasında indiyə qədər davam edən dərin bir mənəvi uçurum yaratdı və iranlı kimliyini tamamilə farslaşdırdı. Şahnamənin təsiri altında və ermənilərin təhriki ilə türk düşmənçiliyini artıran Rza şah Cənubi Azərbaycanda yerli əhaliyə qarşı başlatdığı bu siyasəti eyni zamanda cəmiyyətin bütün sahələrində həyata keçirdi. İranda türklərin minillik hakimiyyəti dönəmində mövcud olmuş dövlətçilik irsi mənimsənildi və fars mədəniyyətinin məhsulu kimi təqdim edildi, Azərbaycan türklərinin tarixi keçmişi saxtalaşdırıldı və əsassız nəzəriyyələr irəli sürüldü. Bütün bunlar ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsini meydana gətirən başlıca tarixi səbəblərdir.

**“Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin formalaşması”** adlanan **II fəsil** üç yarımfəsildən ibarətdir. Bu fəsildə Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin formalaşması, həmçinin bu sahədə əməyi keçən Azərbaycan mühacirləri və Türkiyə tədqiqatçılarının elmi araşdırmaları işıq üzü görmüşdür.

Birinci yarımfəsil **“Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsini gündəmə gətirən səbəblər”** adlanır. Burada Türkiyə ictimai fikrində Cənubi Azərbaycan məsələsinin gündəmə gəlməsini şərtləndirən tarixi səbəblər öz əksini tapmışdır.

Cənubi Azərbaycan məsələsi hələ Türkiyə Respublikası elan edilməmişdən illər öncə Osmanlı dövlətinin diqqət mərkəzində olmuşdur. Vyana qapılarına qədər Avropanın geniş bir hissəsini fəth etmiş Osmanlı xanədanlığı sonralar bəzi torpaqlarını itirdi. Bu itkilər onu qonşu ölkələrdə təhlükəsizlik tədbirləri görməyə məcbur edirdi. Osmanlı dövləti xüsusilə Rusiya ilə apardığı savaşlarda böyük ərazilərini və canlı qüvvəsini itirdi. Bu faktor isə Rusiyaya qarşı daha ciddi addımlar atmağa əsas verirdi. Rusiyanın cənuba doğru irəliləməsinin qarşısını almaq üçün Qafqazda və İranda Azərbaycan türklərini ona qarşı birləşdirmək Osmanlı dövlətinin təhlükəsizliyi baxımından gündəmdə olan bir məsələ idi. Bu işdə Təşkilati

Mahsusanın xidmətləri təqdirəlayiqdir. 1911-ci ildə Tripoli və Balkan müharibələrində yetərli əsgər sayı olmaması səbəbindən könüllü birliklərdən təşkil olunmuş Təşkilati Mahsusa hərbi və siyasi təşkilat kimi fəaliyyət göstərmişdir. Osmanlı dövlətində təhlükəsizlik tədbirlərinin gücləndirilməsində, həmçinin Azərbaycan türklərinin çar Rusiyasına qarşı birləşdirilməsində və respublika öncəsi Türkiyə cəmiyyətində Cənubi Azərbaycan haqqında ilkin təsəvvürlərin formalaşmasında Təşkilati Mahsusanın mühüm xidmətləri olmuşdur.

Ümumilikdə, Türkiyə ictimai fikir tarixində quzeyli-güneyli Azərbaycan məsələsini gündəmə gətirən səbəbləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Türkiyə ilə sərhəddə yerləşən Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğala məruz qalması və Türkiyənin şərq sərhədlərində təhlükəsizlik məsələsi;
- Rusiyanın təhriki ilə Türkiyənin Şərqi Anadolu bölgəsində ermənilərin pozuculuq fəaliyyəti, Azərbaycan türklərinə qarşı etnik təmizləmə siyasəti həyata keçirməsi və eyni təhlükənin Türkiyənin şərq torpaqlarında da baş verməsi ehtimalı;
- Türkiyənin Qafqazda və İranda özünə dayaq yaratmaq məqsədi ilə Azərbaycan türklərini Rusiya təhlükəsinə qarşı vahid cəbhədə birləşdirmək.

I Dünya müharibəsinin başlandığı ərəfədə Qafqaz cəbhəsində siyasi durum olduqca qarışıq idi. Bu baxımdan Azərbaycanla bağlı əsas məqamlar təşkilatın İrandakı fəaliyyəti ilə bağlıdır. Osmanlının İran cəbhəsində bu qədər maraqlı olması və Cənubi Azərbaycan məsələsini diqqətə alması Osmanlı üçün strateji əhəmiyyət kəsb edirdi. Belə ki, Osmanlı hərbi komandalığının çoxlu sayda ordularını İrana göndərməsi, İranın daxili təhlükəsizliyində maraqlı olması, hətta müttəfiqi olan Almaniya ilə ixtilafa girməsi və Mosul cəbhəsində yaşanan hadisələr bunu bir daha təsdiq edir. 1917-ci ilin mart ayında Kaymakam Ömər Fevzi bəy və Osmanlıya xidmət edən Nizammüssəltənə millətvəkilləri və mühacirlərlə birlikdə Kərkükə gəldilər. Burada Osmanlı tərəfindən verilmiş mühüm tapşırıqlar, o cümlədən, iranlıların Rusiyada baş vermiş inqilabdan yararlanmasına yönəlik fəaliyyətlər müzakirə edildi. Bu zaman Kərkük Osmanlı dövlətinin nəzarətində idi. Nizammüsəltənə Kərkükdəki Sultani

məktəbinə səfər edərkən maraqlı bir mənzərə ilə rastlaşdı. Qonaqları qarşılayan məktəbin şagird və müəllimi söylədikləri ilə hər kəsi təəccübləndirdi. Məktəbin şagirdi İran xəritəsinə baxaraq dedi: *"İranda bu qədər türk vardır. İranlıların cəsurları türkdür. Buna görə də İran şahlığı türklərindir."* Daha sonra müəllim bunları əlavə etdi: *"Qayəmiz bir təpəyə çıxmaqdır. Bu təpə Turandır. Yolu İrandan keçər. Fəqət yolumuzdakı Azərbaycan Türkdür. Bir gün gələcək ki, biz İstanbuldan qalxıb Azərbaycandan keçərək Turana gedib gələcəyik."*[10] Kaymakam Ömər Fevzi bəy bələdiyyə başqanını ziyarət edərkən qarşılaşdıqları mənzərini danışır. Bələdiyyə başqanı isə bunun daha öncə Kərkükə gələn Doktor Fuadın propaqandasının əsəri olduğunu bildirir.[11] Bütün bunlar Osmanlının həyata keçirdiyi təbliğatın nəticəsi idi və Cənubi Azərbaycan ərazisinin İran cəbhəsində müttəfiqlərə qarşı aparılan savaşda necə strateji önəm daşıdığını göstərir.

**"Azərbaycan mühacirlərinin elmi araşdırmalarında Cənubi Azərbaycan məsələsi"** adlanan ikinci yarımfəsildə Azərbaycan mühacirlərindən M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, ƏAğaoğlu, M.S.Aran, M.N.Təbrizli, Ə.Cəfəroğlu və H.Baykaranın elmi fəaliyyəti çərçivəsində Türkiyə ictimai fikrində Cənubi Azərbaycan məsələsinə yer verilmişdir. Türkiyəyə pənah aparmış mühacirlər Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycan haqqında ilkin təsəvvürlərin yaranmasında mühüm rol oynamışlar. Bununla belə, Azərbaycan Xalq Cümhuriyyəti qurucuları başda olmaqla Azərbaycan mühacirlərinin önəmli bir qismi Cənubi Azərbaycan məsələsini İran türklərinin öyrənilməsi çərçivəsində tədqiq etmişlər. Lakin ötən əsrin 40-cı illərində azərbaycanlı mühacirlərdən M.N.Təbrizli bu ənənəni pozaraq Cənubi Azərbaycan məsələsinin öyrənilməsində yeni baxış sərgilədi. Eyni zamanda azərbaycanlı mühacirlərdən Ə.Cəfəroğlu və H.Baykara da Türkiyə ictimai fikrində Cənubi Azərbaycan məsələsinin formalaşmasında böyük pay sahibi oldular.

---

[10] Tetik, A. Teşkilat-ı Mahsusa (Umur-ı Şarkıyye Dairesi) Tarihi1917. İstanbul: Türkiye İş Bankası Kültür Yayınları, Cilt II, 2018, s. 237

[11] Birinci, A. Dr. Fuat Sabit – Mechul Bir Adamın Serencamı Türk Yurdu, sayı 139-141, Mart-Mayıs 1999, s. 45-58

Türkiyə ictimai fikir tarixində İran türkləri və türkçülük kontekstində Cənubi Azərbaycan məsələsinin formalaşmasında Türkçülük hərəkatının ön sıralarında yer almış milliyyətçilər mühüm rol oynamışlar. **“Türkiyə tədqiqatçılarının elmi araşdırmalarında Cənubi Azərbaycan məsələsi”** adlanan üçüncü yarımfəsil məhz bu məsələyə həsr edilmişdir. Türkiyə ictimai fikir tarixində milliyyətçi təfəkkürə sahib olan tədqiqatçılar Cənubi Azərbaycan məsələsini türkçülük və Türk Birliyi çərçivəsində tədqiq etmişlər. Həmin tədqiqatçılar arasında Y.Akçura, Z.Göyalp və H.N.Atsızı göstərə bilərik. Adları sadalanan tədqiqatçılar türk xalqlarından bəhs edərkən Türkiyənin xaricində də böyük bir türk varlığının olduğunu insanların diqqətinə çatdırmış və Cənubi Azərbaycan türkləri ilə əlaqədar olan məsələləri ictimai fikir tarixində gündəmə gətirmişlər.

Dissertasiyanın üç yarımfəsildən ibarət olan **III fəsli “Türkiyə ictimai fikir tarixində Cənubi Azərbaycanda kimlik, ərazi və əhali məsələləri”** adlanır. Bu fəsildə İranda həyata keçirilmiş fərqli kimlik siyasətinin Cənubi Azərbaycan əhalisinə təsiri, həmçinin türk və iranlı kimliyi, Cənubi Azərbaycanda ərazi və əhali məsələləri işıqlandırılmışdır.

Birinci yarımfəsil **“İranda kimlik siyasətinin Cənubi Azərbaycan əhalisinə təsiri”** adlanır. Bu yarımfəsildə əsasən İranın tarixən çoxmillətli bir etnik quruluşa sahib olmasından, eləcə də İranda həyata keçirilən kimlik siyasətindən və bunun Cənubi Azərbaycan əhalisinə olan təsirindən bəhs edilir.

Bir-birindən fərqli etnosları təmsil edən İran çoxmillətli bir cəmiyyətdir. Hazırda bu coğrafiyada türk, fars və ərəb kimi üç böyük mədəniyyətin nümayəndələri yaşayır və bunların hər birinin öz yaşayış tərzi, dili və mədəni dəyərləri vardır. Lakin hər üç mədəniyyəti təmsil edən bu insanların yaşadığı coğrafi şərtlər və ticari əlaqələr onları tarixən birgə yaşamağa sövq etmişdi. Bu səbəbdən də İranda yalnız fars kimliyindən danışmaq doğru deyildir. Ölkənin siyasi tarixi də farsların İranda hakimiyyətinin daha az davam etdiyini göstərir. Farsların İranda hakimiyyəti Miladdan öncə Əhəmənilərlə və Miladdan sonra isə Sasanilərlə məhdudlaşmışdı. Tarixdən bizə məlum olduğu kimi, III əsrdə yaranmış və böyük bir imperiyaya çevrilmiş Sasani dövləti VII əsrdə Ərəb Xilafəti

tərəfindən işğal edildi. X əsrdə Oğuz-Səlcuq türklərinin İranı fəth etməsindən 1925-ci ilə qədər keçən dövr ərzində farsların İranda heç bir hakimiyyəti mövcud olmamışdır. Xilafətin zəifləməsindən sonra, yəni X əsrin sonlarından başlayaraq İran min il boyunca Orta Asiya və ya Türküstan coğrafiyasından gələn fərqli türk sülalələri tərəfindən idarə olunmuşdu.[12] İslamın gəlişi ilə bu coğrafiyada yaşayan bütün xalqlar üçün ortaq İslam mədəniyyəti formalaşdı. Türk sülalələrinin İranı idarə etdiyi yüz illər ərzində bu coğrafiyada bütün xalqların elmi və mədəni inkişafı üçün lazım olan tədbirlər görülmüş, onların mənəvi birliyi və bərabərliyi təmin edilmişdir. Bu səbəbdən də orta çağlarda İranda nə türklər, nə də farslar arasında hər hansı bir milli ədavət və yaxud ayrı-seçkilik mövcud olmamışdır.

XIX əsrin sonları – XX əsrin əvvəlləri Şərqdə yeni nəzəriyyələrin meydana çıxması ilə yadda qalmışdır. İranlı kimliyinin formalaşması da məhz belə bir zamana təsadüf etmişdir. Qeyd etmək lazımdır ki, İranın son yüzillik tarixi çoxmillətli əhali üzərində fərqli kimlik siyasətini həyata keçirmiş iki fərqli siyasi rejimlə müşahidə olunur.[13] Bunlardan birincisi, İranda minillik Türk hakimiyyətinin devrilməsindən sonra 1925-ci ildə İran taxtına çıxmış ari kökənli Pəhləvi sülaləsi tərəfindən həyata keçirilmiş və ari irqinin üstünlüyünə əsaslanmış Pan-İranizm siyasəti olmuşdur. İkincisi isə Pəhləvilərin devrilməsi ilə İslam rejimi tərəfindən həyata keçirilən və günümüzədə də davam edən İslam kimliyi siyasətidir. İranlı kimliyi məsələsi Türkiyə ictimai fikrində araşdırmaya cəlb olunmuş mühüm məsələlərdən biridir. Türkiyəli tədqiqatçılardan Arif Kəskin iranlı kimliyinin formalaşması prosesində fars millətçiliyinin XIX əsrdən günümüzə kimi “modern fars millətçiliyi”, “ənənəvi fars millətçiliyi” və “iranlılıq” kimi üç əsas dalğasını müəyyən etmişdir.[14]

**“Cənubi Azərbaycanın tarixi ərazisi və onun inzibati cəhətdən parçalanması”** adlanan ikinci yarımfəsildə Cənubi

[12] Ağaoğlu, A. İran ve İnkılabı. Ankara: Zerbamat Basımevi, 1941, s. 11

[13] Mozaffari, A. Forming National Identity in Iran: The Idea of Homeland Derived from Ancient Persian and Islamic Imaginations of Place. London and New York: IB Tauris, 2014, p. 181

[14] Keskin, A. İranda Fars Milletçiliğinin Üç Dalgası: İranlılığa Giden Yol. Ankara: Güney Azerbaycan Sosyal, Kültürel ve Siyasal Araştırmaları Dosyası, S 5, 2005, s. 21

Azərbaycanın tarixi ərazisindən bəhs olunmuş və Pəhləvilər dövründən başlayaraq onun inzibati cəhətdən parçalanması faktı ortaya qoyulmuşdur.

Tarixi Azərbaycan ərazisi Rusiya və İran arasında 10 fevral 1828-ci il tarixli Türkmənçay sülh müqaviləsinin imzalanmasına qədər bütöv halında olmuşdur. Qacar sülaləsinin zamanında isə İran tədricən zəiflədi və çar Rusiyasına məğlub olması Azərbaycanın rəsmən ikiyə bölünməsinə gətirib çıxardı. Şimali və Cənubi Azərbaycan anlayışları da həmin zaman ortaya çıxdı. Azərbaycanın ikiyə bölünməsi ilə Araz çayı sərhəd oldu və "Cənubi Azərbaycan" şimalda Araz çayı, qərbdə Osmanlı sərhədi, şərqdə Xəzər dənizi və cənubda isə Həmədan və Qum şəhərlərinə qədər uzanan geniş bir ərazini əhatə etdi. Bu bölünməyə baxmayaraq, hər iki Azərbaycan eyni dil və mədəniyyətə sahibdir. Bu, günümüzdə də dəyişməz olaraq qalır.

Təəssüflə qeyd etmək lazımdır ki, Qacarların devrilməsi və Pəhləvilərin 1925-ci ildə İran taxtına sahib olması ilə ölkənin federativ strukturu tamamilə dəyişdirildi. Rza şahın göstərişi ilə İran Milli Məclisi 1937-ci ildə ölkənin yeni inzibati-ərazi bölgüsü haqqında qanun qəbul etdi və bununla Cənubi Azərbaycan ərazisi olduqca kiçildi. Tarixən Azərbaycan sərhədləri içərisində yerləşən Zəncan, Qəzvin, Həmədan Azərbaycandan ayrıldı və müstəqil ostanlara çevrildi, Astara şəhəri Gilana, Savə isə Tehrana verildi. Bütün bunlar Pəhləvilər tərəfindən həyata keçirilmiş anti-türk siyasətinin tərkib hissəsi olaraq məqsədli şəkildə həyata keçirilirdi. Bu məsələ Türkiyə ictimai fikrində də öz əksini tapmış və tədqiqatçılar məsələnin öyrənilməsinə töhfələr vermişlər.

III fəslin son yarımfəsli **"İranda yaşayan türk xalqları və azərbaycanlıların ümumi sayı"** adlanır və burada Türkiyə ictimai fikrində həyata keçirilmiş tədqiqatlar əsasında İranda yaşayan türk xalqları, o cümlədən, azərbaycanlıların sayı ilə əlaqədar müddəalar öz əksini tapmışdır.

Elmi ədəbiyyatda İranda yaşayan türk xalqlarının dəqiq sayı haqqında birmənalı fikir mövcud deyildir. İran hakim dairələri isə əksər hallarda türklərin sayını olduğundan daha az göstərməyə çalışırlar. Cənubi Azərbaycanda milli fəallar əksinə bu rəqəmin

onların göstərdiyi rəqəmdən iki dəfə çox olduğunu iddia edirlər. Türkiyə ictimai fikir tarixində İranda yaşayan əhalinin ümumi demoqrafik durumu və türk xalqlarının sayı haqqında işıq üzü görmüş yazıların incələnməsi bu mübahisəli məsələnin öyrənilməsində çox böyük önəm kəsb edir.

Türkiyə ictimai fikrində məsələ ilə əlaqədar göstərilən rəqəmlər biri digərindən fərqlidir. Bəzi qaynaqlarda bu göstərici ümumi İran əhalisinin ¾-ü nisbətində, bəzilərində 40-45%, bəzilərində isə daha yüksək göstərilmişdir. Lakin ümumi olaraq deyə bilərik ki, İranda yaşayan türk xalqlarının sayı ən pis halda 40%-dir və bu faizin də ¾-nü azərbaycanlılar təşkil edir.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat işinə yekun vurulmuş və əldə olunmuş elmi yeniliklər aşağıdakı kimi ümumiləşdirilmişdir:

• 1925-ci ildə İranda türk Qacar sülaləsinin devrilməsindən sonra anti-türk Pəhləvi sülaləsinin hakimiyyətə gəlməsi ilə Azərbaycan xalqının tarixi məqsədli şəkildə saxtalaşdırılmağa başlandı. Bu siyasət xüsusilə Cənubi Azərbaycan ərazisində amansızcasına həyata keçirilmiş, güneydə yaşayan soydaşlarımız cəmiyyətin bütün sahələrində ayrı-seçkiliyə məruz qalmış və ana dilində təhsil hüququndan məhrum edilmişdi. Hətta Azərbaycanı İranın bir hissəsi olaraq təqdim etməyə cəhdlər də göstərilmişdi. Bütün bunlar ictimai fikir tarixində Cənubi Azərbaycan məsələsinin meydana gəlməsi ilə nəticələndi.

• Cənubi Azərbaycanla bağlı Türkiyə ictimai fikir tarixində müxtəlif illərdə dərc olunmuş yazılar bir daha onu göstərir ki, məsələyə yanaşmalar heç də birmənalı olmamışdır. Təbii ki, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının, Türkiyə milliyyətçilərinin və digər Azərbaycan mühacirlərinin yazıları məsələ ilə bağlı Türkiyə ictimai fikir tarixində qaynaq rolunu oynayır. Bununla belə, illər ötdükcə Cənubi Azərbaycan məsələsi ilə bağlı yazılar daha da genişlənmiş, türkiyəli tədqiqatçıların elmi fəaliyyətində Cənubi Azərbaycan, onun ərazisi, tarixi sərhədləri, əhalisi, mədəniyyəti və başqa bu kimi mühüm məsələlər tədqiqata cəlb olunmuşdur.

• Şimali Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi Cənubi azərbaycanlılar arasında milli özünüdərki gücləndirdiyi kimi, 27 sentyabr 2020-ci ildə müzəffər Azərbaycan ordusunun Qarabağı işğaldan azad etmək üçün erməni işğalına qarşı başlatdığı 44 günlük vətən müharibəsi də şimallı-cənublu azərbaycanlılar arasında milli-mədəni birliyi daha da gücləndirdi. Türkiyə Cümhuriyyəti prezidenti cənab R.T.Ərdoğanın 10 dekabr 2020-ci il tarixində Bakıda keçirilmiş zəfər paradında iştirakı və bütöv Azərbaycan məsələsinə işarə edən çıxışı da bu məsələdə bir daha özünü qabarıq şəkildə göstərdi. Türkiyə Respublikasının siyasi və hərbi gücünün kəskin artması, Türk Birliyinin qurulması istiqamətində Azərbaycan Respublikası ilə yaxınlaşma siyasəti yeritməsi və bu prosesin Cənubi Azərbaycana yansıması qonşu ölkələr tərəfindən də diqqətlə izlənilir. Lakin Orta Şərqdə cərəyan edən siyasi hadisələr digər ölkələrlə müqayisədə Cənubi Azərbaycan məsələsinin Türkiyə üçün önəmini daha da artırır.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin aşağıdakı elmi məqalələrində və konfrans materiallarında öz əksini tapmışdır:**


1. Hüseyn Baykaranın araşdırmasında İran türkləri və Güney Azərbaycan məsələsi // "Bəxtiyar Vahabzadənin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş" VI Beynəlxalq elmi konfrans materialları. Kars, Türkiye, 25-26 Avust 2020, s. 151-154.
2. Türkiye Kamuoyu tarihinde Güney Azerbaycan meselesinin oluşması // IV Beynəlxalq Mersin Simpoziumu materialları. Mersin, Türkiye, 22-24 Oktyabr 2020, s. 64-65.
3. Qacarların devrilməsindən sonra Güney Azərbaycanın inzibati cəhətdən parçalanması // Azərbaycan Milli Elmlər Akademiyası, Akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, "Şərq xalqlarının I qurultayı – Bakı, 1920. Şərq dünyası 100 il əvvəl və bu gün" mövzusunda Beynalxalq elmi konfransı tezisləri. Bakı: 2020, s. 36-37.

4. Türkiyə millətçilərinin araşdırmalarında İran türkləri və Güney Azərbaycan məsələsi // “Geostrategiya” jurnalı. Bakı: 2020, № 5-6 (59/60), s. 54-58.
5. Türkiyə ictimai fikrində İranda türk kimliyi və iranlı kimliyi məsələsi // “Geostrategiya” jurnalı. Bakı: 2021, № 01 (61), s. 50-55.
6. Azərbaycan mühacirlərinin araşdırmalarında İran türkləri və Güney Azərbaycan məsələsi // Avrasiya Universiteti. “Sivilizasiya” jurnalı. Bakı: 2021, Cild 10, № 01 (46), s. 130-136.
7. The Issue of Turkic Population in Iran in the Turkish Public Opinion // Journal of “History and Future”. 7/1, Mart 2021, s. 499-509.
8. Azərbaycan əhalisinin soykökü məsələsinə ümumi baxış // IV Beynəlxalq Novruz Konfransı. Qarabağ, Azərbaycan, 18-21 Mart 2021, s. 152-157.
9. Historical Approaches to the Issue of Etymology, Statehood and Identity of Azerbaijan // “VAKANÜVİS – International Journal of Historical Researches”. 6/1, (2021), s. 240-259.
10. Güney Azərbaycanda türk-müsəlman əhaliyə qarşı erməni soyqırımı və Osmanlının yardımı // “Tarix və onun problemləri” jurnalı. Bakı: 2021, № 02, s. 54-57.
11. Azərbaycan Xalq Cümhuriyyəti qurucularının araşdırmalarında İran türkləri və Güney Azərbaycan məsələsi // “Gənc Tədqiqatçı” jurnalı. Bakı: 2021, VII Cild, № 01, s. 201-207.
12. Osmanlı Türkiyəsində Güney Azərbaycan məsələsi və Təşkilat-i Mahsusanın rolu // “Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə” jurnalı. Bakı: 2021, VII Cild, № 1 (73), s. 307-316
13. Azerbaycan ve Türkiye Türkleri Arasındakı Dil Bağlılığının Tarihi Bakımdan İncelenmesi // “Bilge Tonyukuk” anısına IX Beynəlxalq Türk Dili Qurultayı. Ankara, Türkiye, 26-30 Sentyabr 2021, s. 197.
14. Türkiye Kamuoyu Tarihinde Güney Azerbaycan Meselesinin Oluşması // “Bengi: Yörük-Türkmen Araştırmaları Dergisi”. 1/1, (2021), s. 65-73.

15. Beyond the Millennial Turkic Power in Iran: A Historiographical Review of Azerbaijanis' Self-defense // Journal of History, Culture and Art Research (Tarih, Kültür ve Sanat Araştırmaları Dergisi), 11/2 (2022), s. 1-16
16. The Issue of Azerbaijan in Ottoman Society and the role of the Special Organization Teshkilat-i Mahsusa // "Khazar Journal of Humanities and Social Sciences". 25/4, (2022) s. 76-87.

Dissertasiyanın müdafiəsi 07 noyabr 2024-cü il tarixində saat $10^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az.1073, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 sentyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.09.2024
Kağızın formatı: A5
Həcm: 42623
Tiraj: 100